# 1 iyun—Uşaqları Beynəlxalq Müdafiə Günüdür

Gələcəyin qurucuları olan uşaqları haqsızlıqlardan qorumaq bəşəriyyəti daim narahat edən məsələlərdir. İyunun 1-ni Uşaqları Beynəlxalq Müdafiə Günü elan etmək də bu zərurətdən doğmuşdur. Beynəlxalq bayramlar içərisində daha çox tarixə malik olan da məhz bu bayramdır. Həmin günün qeyd olunması haqqında qərar Beynəlxalq Demokratik Federasiyanın 1949-cu ilin noyabrında keçirilmiş xüsusi sessiyasında qəbul olunmuşdur. Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilk dəfə 1950-ci ilin 1 iyununda qeyd olunmuşdur, BMT bu təşəbbüsü bəyənmiş və uşaqların hüquqlarını, həyat sağlamlıqlarını öz fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi elan etmişdir.

BMT-nin «Uşaq Hüquqları haqqında» Konvensiya adlı sənədi uşaqaların hansı dövlətdə yaşamasından asılı olmayaraq, onların hüquqlarını tam əhatə edir. Konvensiyaya qoşulan dövlətlər onun müddəaları ilə hüquqi nöqtəyi-nəzərdən razılaşdıqlarını bəyan edirlər, yəni bu müddəalardakı göstərişlərin yerinə yetirilməsi öhdəliyini öz üzərlərinə götürürlər. Onlar bu istiqamətdə görülən tədbirlər haqqında məlumatı vaxtaşırı olaraq BMT-nin İnsan Hüquqları haqqında Komitəsinə təqdim edirlər. Hazırda Konvensiyaya 189 ölkə qoşulub. Azərbaycan Respublikası bu Konvensiyanı 1992-ci ildə ratifikasiya edib.

Konvensiyanın əsas fəlsəfi ideyası uşaq şəxsiyyətidir. Konvensiyada əsas müddəa uşağın maksimum müdafiəsidir. Bununla yanaşı, Konvensiya iştirakçı ölkələri uşaqların öz ölkəsinin sosial-siyasi həyatında daha fəal və yaradıcı iştirakına imkan verən şərait yaratmağa çağırır.

Konvensiyanın mühüm prinsipi irqi ayrıseçkiliyə yol verməməkdir. Uşaqlar irqindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, özlərinin və ya valideynlərinin sağlamlıq vəziyyətindən asılı olmayaraq, öz hüquqlarından istifadə etməlidirlər.

Uşağın bütün hüquqları əhəmiyyətlidir. Bununla belə, bəzi hüquqlar daha vacib hesab edilir. Bunlar ilk növbədə uşağın yaşamaq hüququ, habelə bərabərlik və onun şəxsi rəyinə hörmət hüququdur.

UNİSEF-in «XXI əsr üçün gündəlik»—XXI yüzillikdə ətraf mühit və inkişaf üzrə Qlobal Fəaliyyət Proqramında deyilir ki, «Uşaqların gələcəkdə yaşlıların qeyri-kamil dünyasının passiv qurbanları rolunu oynamaması üçün onlar öz hüquqlarını bilməli, gələcək üçün öz məqsədlərini başa düşməli və buna uyğun hərəkət etməlidirlər».

Azərbaycan dövləti də bu Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə çalışır, Bu sahədə əsas milli sənəd olan «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanunu qəbul olunmuşdur. Hər il iyunun 1-i günü ölkəmizdə də Uşaqların Beynəlxalq Müdafiə Günü kimi geniş qeyd olunur.

**«Qəbələ».**

# Quanabana nədir?

Əsl adı «quanabana» olan yumşaq tikanlı, yaşıl, uzunsov yemişə bənzər meyvəyə «darçın alması» da deyirlər. Bu meyvəyə Amerika qitəsində, ən çox Meksika, Argentina, eləcə də Bermud və Baham adalarında rast gəlmək olar. Son dövrdə onu Hindistanda, Avstraliyada və Cənubi Çində də yetişdirməyə başlayıblar. Quanabananın ləfi müxtəlif minerallarla, vitaminlərlə və digər bəsləyici maddələrlə zəngindir. Bu meyvəni «təbii kimya terapiya vasitəsi» də adlandırırlar. Quanabananın şirəsi süd rəngindədir. Hər gün səhər acqarına və bir stəkan şirəyə 1—2 qənd parçası salınmaqla içilə bilər.

Aparılan araşdırmalar sübut edib ki, bu bitkinin xərçəng əleyhinə xüsusiyyətləri var. Bu yemişə bənzər meyvə orqanizmdəki bütün yad hüceyrələri məhv etməyə qadirdir. Alimlər bu meyvənin şişlərə qarşı təsirini araşdırarkən təsdiq ediblər ki, quanabana kimyəvi terapiyadan 10 min dəfə artıq xərçəng hüceyrələrinə təsir edir və qısa müddətdə onları dağıdır. Bu meyvə Yer kürəsinin ən güclü antikanserogeni sayılır. Onun şirəsini içməklə xəstə özündə dərhal dəyişiklik hiss edir. Kimyaterapiyadan fərqli olaraq, xoş ətirə və kəmşirin dada malik şirə heç bir sağlam hüceyrəyə ziyan vurmur. Quanabana bütün növ xərçəng (sinə, prostat, ağçiyər) xəstəliklərinin dərmanıdır.

O, həmçinin şəkərli diabetin və yoğun bağırsaq xəstəliklərinin müalicəsində, bağırsaq florasının qorunmasında, qaraciyərin fəaliyyətinin yaxşılaşdırılmasında, çəkinin azaldılmasında, mədədə turşuluğun normallaşdırılmasında, orqanizmdən sidik turşusunun çıxarılmasında, onurğa sütununun və nevroloji patologiyaların müalicəsində təsirli vasitədir. Bu meyvənin tərkibindəki ekstrakt zərərli virus və mikroblara, malyariyaya və köbələk xəstəliklərinə qarşı da amansızdır.

## Sevimli balamız Cəmilə!



**Doqquz yaşın mübarək! Səni doğum günün münasibətilə təbrik edir, xoşbəxtlik arzulayırıq.**

**Babaların Zahid, Çingiz, nənələrin Səltənət, Ulduzə, atan Zahir, anan Nurlanə.**

## Elanlar

Qəbələ Rayon Aqrar İslahat komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə sakini İsgəndərov Elşad Xeyrəddin oğluna və ailə üzvlərinin adına verilmiş JN- 1755 B (kodu 40600048) və JN- 1755 A (kodu 40600048) nömrəli **Şəhadətnamələr** itdiyi üçün etibarsfız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 1998-ci il 26 may tarixli 10 saylı qərarla Quşlar kənd sakini Cavadov Eyyub Cəfərqulu oğluna və ailə üzvlərinin adına verilmiş JN-0045 №-li (kodu 40609018) olan**Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 Saylı qərarı ilə Beyli kənd sakini Baxışova Rəfiqə İbad qızının və ailə üzvlərinin adına verilmiş JN-0053 (kodu 40609028) №-li **Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

## Oxucuların nəzərinə!

**«Qəbələ» qəzetinə**

**2015-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

**Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.**

**Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.**

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Turizm və Otelçilik üzrə Peşə tədris mərkəzinin kollektivi **Arifə** və **Sədaqət Bayramovalara,** qardaşları

**SƏYAVUŞ BAYRAMOVUN**

vəfatı ilə əlaqədar başsağlığı verir.

---

Qəbələ şəhər mərkəzi xəstəxananın qadın məsləhətxanasının kollektivi, həmin məsləhətxananın şöbə müdiri **Nüşabə xanıma,** qardaşı

**SƏYAVUŞ BAYRAMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ şəhər 2 saylı tam orta məktəbin kollektivi təhsil şöbəsi metokabinetinin müdiri **Arifə Bayramovaya** və məktəbin müəllimi **Elmira Məsimovaya,** əzizləri

**SƏYAVUŞ BAYRAMOVUN**

vəfatı ilə əlaqədar başsağlığı verir.

---

Qəbələ şəhər 2 saylı tam orta məəktəbin kollektivi iş yoldaşları **Mətanət Əhmədovaya,** həyat yoldaşı

**VAQİF MƏMMƏDOVUN**

vəfatı ilə əlaqədar başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının kollektivi partiyanın Aydınqışlaq ərazi ilk təşkilatının sədri

**NƏCƏF AĞAMOĞLANOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

FHN Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Röyal Xasməmmədova,** atası

**TOBİL XASMƏMMƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

FHN Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Gülnar Hacıyevaya,** atası

**FAİQ MƏMMƏDOVUN**

vəfatı ilə əlaqədar başsağlığı verir.

---

Qəbələ İncəsənət məktəbinin kollektivi iş yoldaşları **Reyhanə Babayevaya,** dayısı

**SƏYAVUŞUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ incəsənət məktəbinin kollektivi iş yoldaşları

**FAİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi: A. C. Cəlilov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospektii, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir. Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.